# Novruz Nəcəfoğlunun yubileyinə

May ayının 2-də dəyərli qələm adamı, ziyalı Novruz Nəcəfoğlunun 70 yaşı tamam oldu. Gənclik illərindən yaradıcılıqla məşğul olan Novruz müəllim qələmə sədaqəti ilə, ardıcıl çalışması ilə oxucuların rəğbətini qazanıb. Özünəməxsus humanistliyi, mehriban xarakteri və insanseverliyi onun mətnlərinin də əsas mövzusunu təşkil edir. Novruz müəllim təkcə bir yazıçı yox, həm də məmur kimi, çalışdığı rayonlarımızda ədəbiyyatın təbliğatı üçün mühüm işlər görür. Bu mənada, Xaqani Poeziya Günlərini xüsusi qeyd etmək lazımdır. İllərlə qədim Şabran torpağında düzənlənən bu tədbir əyalətdə ədəbiyyatın, poeziyanın təbliğatı, tanınması istiqamətində çox böyük təşəbbüs olub. Eyni zamanda sevilən yazıçı və şairlərimizlə ardıcıl imza günləri və görüşlərin keçirilməsi də nəcib xarakterli Novruz müəllimin fədakar əməyinin nəticəsində həyata keçib.

Yubileyini qeyd edən Novruz Nəcəfoğlunun arxaya boylananda görə biləcəyi və ömrünü dəyərləndirmək üçün tərəziyə qoya biləcəyi çox hadisələr var, şübhəsiz. Sayını itirdiyi kitablar, görüşlər, səfərlər, dövlətçiliyə sədaqətlə tutduğu vəzifələr və s. Amma yazıçı ömrü limit, hədd tanımaz. Ona görə dəyərli dostumuza cansağlığı, yeni-yeni yaradıcılıq uğurları, səadət diləyirəm. Yubileyiniz mübarək olsun, əziz Novruz müəllim!

***A N A R***

*Xalq yazıçısı,*

*Azərbaycan Yazıçılar Birliyinin sədri*

Ədəbiyyat qəzeti. - 2024. - 4 may, №16. - S. 5.